# 2017-ci il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## Təhsil hamı üçün – UNEC-də inklüziv təhsil mühiti genişləndirilir -

UNEC-də “Fiziki məhdudiyyətli tələbələrə təhsil xidmətlərindən bərabərhüquqlu istifadə etmələri üçün inklüziv mühitin yaradılması” mövzusunda seminar keçirilib.

“Əlilliyi olan tələbələr üçün mərkəz”də təşkil edilən seminarda UNEC-in fiziki məhdudiyyətli tələbələrinə göstərilən xidmətlərin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər müzakirə edilib. Bildirilib ki, UNEC milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq, əlilliyi olan tələbələr üçün mövcud maneələrin aradan qaldırılmasını və onların universitetin xidmət, proqram və digər təhsil imkanlarından istifadə etməsi üçün lazımi şəraitin yaradılmasını hədəfləyir. Bu məqsədlə universitetdə inklüziv təhsil mühiti yaradılıb. Bu mühit təhsilin hamı üçün əlçatan olmasını təmin etməklə yanaşı, sosial bərabərliyin qorunmasına, əlilliyi olan gənclərin təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olacaq.

Seminarda “Əlilliyi olan tələbələr üçün mərkəz”in fəaliyyətinə nəzarət edilməsi və qiymətləndirilməsi məqsədilə mərkəzin nəzdində Məsləhət Komitəsinin yaradıldığı da diqqətə çatdırılıb. Qeyd olunub ki, komitə ildə bir dəfə mərkəzin üzvləri ilə görüş keçirərək, mərkəzin fəaliyyət planı və strategiyasının hazırlanmasında iştirak edəcək. Eyni zamanda, əlilliyi olan tələbələrin ehtiyaclarına görə, mərkəzin fəaliyyət planını yenidən qiymətləndirərək, nəzərdən keçirəcək, tələbələrin müraciətinə əsasən, müzakirələr aparacaq.

Seminarda UNEC-in mübadilə və ikili diplom proqramlarından danışan Beynəlxalq Əlaqələr Departamentinin direktoru Anar Kazımov universitetdə təhsil alan fiziki məhdudiyyətli tələbələri bu proqramlarda fəal iştirak etməyə dəvət edib. Mübadilə proqramlarına qoşulmaq üçün onlara lazımi imkanların yaradılacağını qeyd edib.

Sonra Beynəlxalq Əlaqələr Departamentinin mütəxəssisi Gülşən Vəliyeva “Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üzrə fondun yaradılması” adlı ESFİDİP Layihəsi çərçivəsində həyata keçirilən tədbirlərdən danışıb.

“Əliliyi olan tələbələr üçün mərkəz”in psixoloqu, dosent Validə Əliyeva bildirib ki, UNEC-də mütəmadi olaraq maarifləndirici təlimlər keçiləcək. Eyni zamanda, əliliyi olan tələbələrə özünəinam, özünüqiymətləndirmə, ətraf aləmə adaptasiya hissləri aşılanaraq, onların istedad və intellektlərini aşkar etmələrinə dəstək olunacaq. Psixoloq, həmçinin, əliliyi olan tələbələr üçün müəllim və tələbə münasibətinin düzgün qurulmasına, təhsil aldıqları müddətdə qarşılaşdıqları psixoloji problemlərin həllinə və müdafiə bacarığına yiyələnmələrinə də dəstək olacağını vurğulayıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Təhsil hamı üçün – UNEC-də inklüziv təhsil mühiti genişləndirilir

## UNEC inklüziv təhsil sahəsində fəaliyyətini genişləndirir -

UNEC “Fiziki məhdudiyyətli insanlar üçün yaradılmış imkanlar və onların üzləşdiyi çətinliklər. İnklüziv təhsil” mövzusunda təşkil olunan seminarda təmsil olunub. UNEC-in nəzdində fəaliyyət göstərən Əlilliyi olan tələbələr üçün Mərkəzin koordinatoru Sevinc Məhsimovanın iştirak etdiyi tədbir Azərbaycan Dillər Universiteitinin təşkilatçılığı ilə keçirilib.

İnklüziv təhsilin məqsədləri və bu sahədə mövcud beynəlxalq təcrübə məsələlərinin müzakirə olunduğu seminarda geniş təqdimatla çıxış edən S.Məhsimova inklüziv təhsil sahəsində UNEC-də həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. UNEC-in nəzdində belə bir Mərkəzin yaradılması və inklüziv təhsil sahəsində UNEC-in beynəlxalq təcrübədən faydalanması tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC inklüziv təhsil sahəsində fəaliyyətini genişləndirir

## “Əlilliyi olan gənclərin cəmiyyətə adaptasiya problemləri” layihəsinin təqdimatı keçirilib –

UNEC-də əlilliyi olan gənclərin cəmiyyətə adaptasiya edilməsinə dair maarifləndirici seminar keçirilib və eyniadlı layihənin təqdimatı olub. Tədbir UNEC Əlilliyi olan tələbələr üçün Mərkəzlə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu və Müharibə Veteranları Qadınlara Sosial Yardım İctimai Birliyinin birgə təşkilatçılığı ilə təşkil edilib.

Koordinator, gənc yazar, Qabil Şirinov bildirib ki, layihənin əsas məqsədi fiziki məhdud gənclərimizin cəmiyyətə adaptasiyası, xüsusi istedada malik olanların aşkar edilməsi, onlarda həyat sevgisinin daha da artırılmasıdır.

UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzin koordinatoru Sevinc Məhsimova universitetdə bu kateqoriayadan olan gənclərə xüsusi diqqətin olduğunu bildirərək, onların cəmiyyətə adaptasiyası sahəsində görülən işlərdən, həyata keçirilən layihələrdən, inklüziv təhsilə göstərilən diqqətdən, bu məqsədlə mərkəz tərəfindən görülən tədbirlərdən danışıb.

Tədbirdə UNEC Əlilliyi olan tələbələr üçün Mərkəzlə Marketinq və Kommunikasiya Departamentinin birgə reallaşdıracağı “Əlilliyi olan şəxslər üçün hərəkət marşurutu” layihəsinin müzakirəsi keçirilib. Layihə tədbir iştirakçıları tərəfindən müsbət dəyərləndirilib.

Sonda UNEC tələbələri layihədə fəal işitirakına görə diplomla təltif edilib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — “Əlilliyi olan gənclərin cəmiyyətə adaptasiya problemləri” layihəsinin təqdimatı keçirilib

## Əlilliyi olan tələbələr üçün Mərkəzin fəaliyyəti dinlənilib

Martın 6-da UNEC-də Əlilliyi olan tələbələr üçün Mərkəzin fəaliyyətini qiymətləndirmək məqsədilə yaradılan komissiyasının növbəti iclası keçirilib.

İclasda görülən işlərin nəticələri və gələcək fəaliyyət istiqamətlərindən danışılıb. Əlilliyi olan tələbələrin dərs prosesində üzləşdiyi problemlər və onların aradan qaldırılması üçün təkliflər dinlənilib.

Görüşdə Beynəlxalq əlaqələr departamentinin əməkdaşı Gülşən Vəliyeva "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsinin barədə məlumat verib.

Əlilliyi olan tələbələr üçün Mərkəzin koordinatoru Sevinc Məhsimova fəaliyyət planına uygun olaraq, görülən islərdən danışıb.

Tələbə təşkilatlarına tapşırılıb ki, UNEC-də təhsil alan əlil tələbələrə Mərkəzin fəaliyyəti barədə məlumat verilsin. Onların universitetin sosial-ictimai, mədəni həyatında aktiv iştirak etmələri üçün təbliğatlar aparlsın.

UNEC-in baş biblioqrafı Arzu Məmmədova audio kitab layihəsi barədə məlumat verib.

Əlilliyi olan tələbələr üçün Mərkəzin psixoloqu Validə Əliyeva universitetdə hər tələbənin bərabərhüquqlu təhsil ala bilməsi üçün uyğun sosial mühitin vacibliyindən danışıb. Tələbələrin, eyni zamanda muəllim-tələbə arasında pozitiv münasibətlərin önəmli oldugunu, bunun üçün seminarların keçirirlməsinin vacibliyini vurgulayıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Əlilliyi olan tələbələr üçün Mərkəzin fəaliyyəti dinlənilib

## Bərabərhüquqlu keyfiyyətli təhsil hər kəsin hüququdur –

Birgə və Sağlam İctimai Birliyinin nümayəndələri UNEC-də olublar.

Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Anar Kazımov qonaqlara UNEC-in son illər əldə etdiyi uğurlardan danışıb, beynəlxalq proqramlar və layihələr haqqında məlumat verib. UNEC-də yaradılan Əlilliyi olan Tələbələr üçün Mərkəzin fəaliyyətindən danışan departament rəhbəri universitetdə bu istiqamətdə maarifləndirmə işinin aparılmasına böyük önəm verildiyini bildirib.

Birgə və Sağlam İctimai Birliyinin rəhbəri Aytən Eynalova birliyin fəaliyyət istiqamətləri barədə məlumat verib. Autizmlə bağlı ölkədə görülən işlərdən danışıb. UNEC-in bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğıdan məmnunluğunu ifadə edən birliyin nümayəndələri birgə tədbirlərin və layihələrin təşkil olunmasının zəruriliyini qeyd ediblər.

Görüşdə birliyin rəhbəri UNEC tələbələrinə autizm üzrə vəsaitlər, məlumat vərəqələri təqdim ediblər.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Bərabərhüquqlu keyfiyyətli təhsil hər kəsin hüququdur

## UNEC-in fiziki məhdudiyyətli tələbələrlə iş sahəsində fəaliyyəti yüksək qiymətləndirilib –

*UNEC Xəzər Universitetinin koordinatoru olduğu "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" TEMPUS (ESFIDIP) adlı layihəsində tərəfdaş qismində çıxış edib.*

Layihə çərçivəsində Xəzər Universitetində "Əlilliyi olan tələbələr üçün Azərbaycanın ali təhsil müəssisələrində bərabər imkanlar" adlı beynəlxalq konfrans keçirilib. İki gün davam edən konfransda UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzinin koordinatoru Sevinc Məhsimova və ESFİDİP layihəsinin koordinatoru, Beynəlxalq əməkdaşlıq departamentinin mütəxəssisi Gülşən Vəliyeva iştirak edib. UNEC nümayəndələri universitetdə yaradılan mərkəzin fəaliyyəti barədə ətraflı məlumat veriblər. Görülən işlərdən söz açaraq, növbəti illərdə həyata keçiriləcək layihələrdən bəhs ediblər. Layihənin tərəfdaşları UNEC-in fiziki məhdudiyyətli tələbələrlə iş sahəsində fəaliyyətini yüksək qiymətləndiriblər.

Səhhətindəki ciddi problemlə əlaqədar olaraq konfransda şəxsən iştirak edə bilməyən 1-ci qrup əlil, UNEC-in IV kurs tələbəsi Orxan Adıgözəl tədbirə skayp vasitəsi ilə qoşularaq, layihənin həyata keçirilməsindəki nailiyyətlərdən danışıb. Əlilliyi olan tələbələrin təhsilə olan marağından söz açıb.

Görüşdə yerli tərəfdaş universitetlərin nail olduğu nəticələr və gələcək fəaliyyət planları geniş müzakirə olunub.

Konfransda layihənin Avropa tərəfdaşları olan Makedoniya Universiteti, Polşanın LODZ Universiteti, Avstriyanın GRAZ Universitetinin nümayəndələri, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və Naxçıvan Dövlət Universitetinin nümayəndələri də iştirak edib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-in fiziki məhdudiyyətli tələbələrlə iş sahəsində fəaliyyəti yüksək qiymətləndirilib

## UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirilib –

Xüsusi qayğıya ehtiyacı olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının əsasının qoyulması" (ESFIDIP) adlı TEMPUS layihəsi çərçivəsində yaradılan UNEC-in Əlililiyi olan tələbələr üçün Mərkəzinin fəaliyyətini və layihə nəticələrini qiymətləndirmək üçün monitorinq keçirilib.

Qiymətləndirməni Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli, ESFIDIP layihəsinin koordinatoru, Xəzər Universitetinin Mərkəz koordinatoru Rima Məmmədova və monitorinq qrupunun digər nümayəndələri həyata keçiriblər.

UNEC-də təşkil edilən görüşdə Mərkəzin koordinatoru Sevinc Məhsimova və Mərkəzdə fəaliyyət göstərən UNEC-in Humanitar kafedrasının dosenti, psixologiya elmləri namizədi Validə Əliyeva görülən işlər barədə məlumat veriblər. Mərkəz üçün tədris

materiallarının hazırlanması, təlimatların universitetinin bütün sturkurlarına paylanması, köməkçi avadanlıqların istifadə olunması nəzərdən keçirilib. Pilot proqramın nəticələri qiymətləndirilib, Mərkəzin sənədləri və infrastruktur müəssərliyi yoxlanılıb. Mərkəzin koordinatoru layihənin davamlığını təmin edən fəaliyyətlər haqqında məlumat verib. Qiymətləndirmə qrupunun nümayəndəndələri Mərkəzdə həyata keçirilən işçləri yüksək qiymətləndirib və gələcək fəaliyyət üçün tövsiyələr veriblər.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirilib

## UNEC tələbəsi Azərbaycan Milli Çempionatında uğur qazanıb –

Sentyabrın 15-də Azərbaycan Kiber İdman Federasiyası və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Kompyuter oyunları üzrə növbəti çempionatı keçirilib. XI Azərbaycan Milli Çempionatının I turunda UNEC-in Maliyyə və Mühasibat fakültəsinin III kurs tələbəsi Zahid Əliyev uğur qazanıb.

Tələbəmizi təbrik edir, onunla qürur duyuruq

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC tələbəsi Azərbaycan Milli Çempionatında uğur qazanıb

## Gənc yazar UNEC-də təhsil imkanları ilə maraqlanıb –

*Fiziki məhdudiyyətli yazıçı Samir İmanov UNEC-də olub.*

UNEC-in Əlilliyi olan tələbələr üçün mərkəzinin koordinatoru Sevinc Məhsimova yazıçıya mərkəzin fəaliyyəti barədə ətraflı məlumat verib. Universitetdə fiziki məhdiduyyətli tələbələrin yüksək səviyyədə təhsil almaları üçün yaradılan şəraitdən danışıb.

Gənc yazıçı yaradıcılığı və müəllifi olduğu kitablardan bəhs edib. Qeyd edib ki, əlilliyi olan insanların problemləri barədə geniş araşdırmalar aparır.

Hazırda o, 4 kitab müəllifidir və bu istiqamətində çalışmalarını davam etdirir.

S.İmanov UNEC-in biblioqrafı Arzu Məmmədovanın tələbələrlə hazırladığı "Səsli kitabxana" layihəsini çox bəyəndiyini və audio-kitab fondunun çoxalmasına dəstək olacağını, universitetdə təşkil olunan maarifləndirmə tədbirlərində yaxından iştirak edəcəyini söyləyib. UNEC-dəki təhsil imkanlarını yüksək qiymətləndirən gənc yazıçı burada təhsil almaq istəyini bildirib.

Görüşün sonunda Samir İmanov "Özünlə fəxr et" kitabını UNEC-in kitabxanasına hədiyyə edib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Gənc yazar UNEC-də təhsil imkanları ilə maraqlanıb

## "İnklüziv təhsil UNEC-in prioritet məsələlərindəndir" –

UNEC Bakıda keçirilən "Əlilliyi olan gənclərin müstəqil həyat, sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak etmə hüquqları" mövzusunda beynəlxalq elmi-praktiki konfransa təmsil olunub.

Gənclər və İdman Nazirliyi, “Dan” Beynəlmiləlçi Gənclər İctimai Birliyi və MDB-nin üzvü olan ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun təşkil etdiyi konfransa dünyanın 13 ölkəsinin nümayəndə heyəti qatılıb.

UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzinin koordinatoru Sevinc Məhsimova inklüziv təhsilin UNEC-in prioritet məsələlərindən olduğunu bildirərək, bu istiqamətdə universitetdə zəruri tədbirlərin həyata keçirildiyini bildirib. S.Məhsimova Azərbaycanda ilk dəfə UNEC-də həyata keçirilən inklüziv ali təhsildə ikili diplom proqramından bəhs edərək, bu günlərdə UNEC ilə Moskva Dövlət Humanitar İqtisad Universiteti (MDHİU) arasında imzalanan razılaşmanın hər iki tərəf üçün faydalı olacağını bildirib.

Konfrans iştirakçıları UNEC-də inklüziv təhsilin inkişafı istiqamətində atılan addımları müsbət dəyərləndiriblər.

Üç gün davam edən konfransda əlilliyi olan gənclərə aid qanunvericilik aktları, bu sahədə təcrübələrin öyrənilməsi, ictimai davranış qaydaları, habelə əlilliyi olan gənclərin mülki, siyasi, sosial, iqtisadi, mədəni hüquqlarının bərabər şəkildə təmin edilməsi, bu qəbildən olan şəxslərə münasibətdə insan hüquqlarının monitorinqinin milli mexanizminin dəstəklənməsi, həmin şəxslər üçün əlçatan media, sosial obyektlər, xidmətlər və nəqliyyatın təmin edilməsi və fiziki qüsurlu vətəndaşlara qarşı jurnalist etikası mövzuları üzrə təqdimat və müzakirələr keçirilib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — “İnklüziv təhsil UNEC-in prioritet məsələlərindəndir”

*“UNEC II beynəlxalq elmi-praktik konfransda*

Moskvada “Əlilliyi olan gənclərin inklüziv təhsil şəraitində professional oriyentasiyası” mövzusunda II beynəlxalq elmi-praktik konfrans keçirilib.

Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyinin təşkilatçılığı ilə Moskva Dövlət Humanitar-İqtisad Universitetində təşkil edilən konfransda UNEC də təmsil olunub. Konfransda Rusiya və Belarus Respublikasının təhsil müəssisələrinin rəhbərləri, elmi və pedaqoji işçiləri iştirak edib.

Konfransda inkluziv təhsil müəssisələrində karyera yönümlü işin təşkili və metodoloji dəstəyi, əlilliyi olan təhsil alan gənclərə aid professional oriyentasiya, qanunvericilik aktları, bu sahədə təcrübələrin öyrənilməsi, habelə əlilliyi olan gənclərin mülki, siyasi, sosial, iqtisadi, mədəni hüquqlarının bərabər şəkildə təmin edilməsi müzakirə olunub.

Konfransda UNEC-in Əlilliyi olan tələbələr üçün Mərkəzinin koordinatoru Sevinc Məhsimova, inklüziv təhsilin UNEC-in prioritet məsələlərindən olduğunu vurğulayaraq, bu istiqamətdə universitetdə zəruri tədbirlərin həyata keçirildiyini bildirib. Rus İqtisadiyyat Məktəbinin “İqtisadiyyat” kafedrasının dünya iqtisadiyyatı və ticarət ixtisasının rəhbəri Sevər Məmmədova UNEC və Moskva Dövlət Humanitar İqtisad Universiteti (MDHİU) arasında imzalanan ikili diplom proqramının əhəmiyyətindən danışıb. Razılaşmanın Azərbaycanda və MDB məkanında inklüziv mühitdə əlilliyi olan tələbələrə hər iki universitetin diplomunu almaq imkanı verən ilk proqram olduğunu diqqətə çatdırıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — "İnklüziv təhsil UNEC-in prioritet məsələlərindəndir"

## UNEC tələbələri üçün fərqli gün –

UNEC tələbələrinin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində tədbirlər davam edir.

UNEC-in "Əlilliyi olan tələbələr üçün Mərkəzi"nin təşkil etdiyi növbəti görüşdə tələbələrlə birgə əməkdaşlar da iştirak ediblər. Görüş zamanı tələbələr xüsusi istedadları, hobbiləri, yaradıcılıq planları barədə fikirlərini bölüşüblər. Eyni zamanda özünüikişaf təlimlərində iştirak etmək istədiklərini bildiriblər.

UNEC-in V kursunda qiyabi təhsil alan Orxan Adıgözəl yeni çap edilən hekayəsi və "ƏSA" teatrındakı fəaliyyəti, oynadığı rollar barədə danışıb. Sonra Texnologiya və Dizayn fakültəsinin I kurs tələbəsi, "UNEC Gənc şair" layihəsinin iştirakçısı Sərxan Cəfərov şeirlərini səsləndirib. Mühasibat uçotu və audit ixtisası üzrə qiyabi təhsil alan III kurs tələbəsi Zahid Əliyev isə kiber idman növü üzrə çempionatdakı uğurlarını bölüşüb. İqtisadiyyat fakültəsinin ictimai və sosial tədbirlərdə fəal iştirak edən IV kurs tələbəsi Amin Hüseynov, biznesin idarəedilməsi ixtisası üzrə qiyabi təhsil alan I kurs tələbəsi Amin Fərəczadə qarşıya qoyduqları hədəflər barədə danışıblar.

Maraqlı və səmimi ortamda keçən görüşdə müxtəlif mövzularda aparılan fikir mübadiləsindən sonra tələbə və əməkdaşlar birlikdə film izləyiblər.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC tələbələri üçün fərqli gün

## "Duyğularımın rəngi" –

Noyabrın 3-də Azərbaycan Milli Tarixi Muzeyində gənclərin əl işlərindən ibarət "DUYĞULARIMIN RƏNGİ" adlı sərgi açılıb.

3 dekabr – Beynəlxalq əlillər gününə həsr olunan sərgidə UNEC tələbələri və Əlilliyi olan tələbələr üçün mərkəzin koordinatoru Sevinc Məhsimova da iştirak edib.

Əsasən 1 saylı sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzində müxtəlif peşələri öyrənən gənclərin əl işləri nümayiş olunan sərgidə bildirilib ki, mərkəzdə sağlamlıq imkanları məhdud olan gənclərin peşəöyrətmə vasitəsilə sosial reabilitasiyası təşkil olunur. Məqsəd onların öz bacarıqları ilə əmək bazarına inteqrasiyasına nail olmaqdır.

S.Məhsimova bu cür sərgilərin gənclərin fərdi sahibkarıq fəaliyyətinə təkan verdiyini bildirərək, onlarının istedadlarının üzə çıxarılmasını təqdir edib. Onların sərhədsiz istedadından, zəngin duyğularının bu qədər gözəlliklə təqdim etmələrindən təsirləndiyini söyləyib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — "Duyğularımın rəngi"

## "Əlilliyi olanlar üçün Şağan müalicə pansionatı"nda Novruz şənliyi

UNEC tələbələri Novruz bayramı münasibəti ilə Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən "Əlilliyi olanlar üçün Şağan müalicə pansionatı"nı ziyarət ediblər. Universitetin

tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova UNEC rəhbərliyi adından pansionat sakinlərini təbrik edib. Novruz Bayramının qədim tarixindən, xalqımızın əsrlər boyu bu tarixi bayramı qoruyub yaşatmasından, hətta Sovet hakimiyyəti dövründə bu bayramın qeyd olunmasına qoyulan qadağalara baxmayaraq, xalqımızın bu el şənliyini daima qeyd etməsindən söhbət açıb.

İqtisad Universitetinin professor-müəllim heyətinin də qatıldığı Novruz şənliyində UNEC Yaradıcılıq Mərkəzinin üzvləri mahnılar oxuyub, şeirlər səsləndiriblər.

“Əlilliyi olanlar üçün Şağan müalicə pansionatı”nda Novruz şənliyi (unec.edu.az)